

# İNSAN ALVERİNƏ QARŞI FƏALİYYƏT HAQQINDA AVROPA ŞURASININ KONVENSİYASI

İnsan alverinə qarşı mübarizədə qurbanların hüquqlarının qorunmasına mərkəzi yer ayıran ilk beynəlxalq hüquqi sənəd. Avropa Şurasına üzv olmayan dövlətlərin də qoşulması üçün açıqdır.

**2005** Varşavada qəbul edilmə

**2008** qüvvəyə minmə

**2025** 48 tərəf dövlət

## KONVENSİYANIN ƏLAVƏ DƏYƏRİ NƏDƏDİR?

- İnsan alverini insan hüquqlarının pozulması kimi tanıyır
- İnsan alverinin bütün qurbanlarına və formalarına şamil edilir
- Qurbanların hüquqlarının qorunmasına xüsusi diqqət yetirir
- Qurbanların və şahidlərin müdafiəsi üçün hüquqi çərçivə müəyyən edir
- Səmərəli icranı təmin etmək üçün monitorinq mexanizmi yaradır

## KONVENSİYANIN ƏSAS SÜTUNLARI HANSILARDIR?

→ PREVENTİV TƏDBİRLƏR
→ QORUMA
→ CİNAYƏT TƏQİBİ
→ TƏRƏFDAŞLIQ

## KONVENSİYAYA GÖRƏ İNSAN ALVERİ QURBANLARI HANSI HÜQUQLARA SAHİBDİRLƏR?

### İDENTİFİKASİYA

İnsan alverçilərinə qarşı hər hansı cinayət icraatından asılı olmayaraq qurban qismində müəyyən olunma hüququ.

### ŞƏXSİ HƏYATIN QORUNMASI

Qurbanların şəxsi məlumatları açıqlana bilməz və yalnız spesifik qanuni məqsədlər üçün saxlanıla bilər.

### YARDIM

İstintaq orqanları ilə əməkdaşlıq edib-etməmələrindən asılı olmayaraq, qurbanların uyğun və təhlükəsiz yaşayış yeri ilə təmin edilmək, psixoloji, maddi və digər yardımlar almaq hüququ var.

### BƏRPA VƏ DÜŞÜNMƏ MÜDDƏTİ

İnsan alverçilərinin təsirindən yaxa qurtarmaq və/və ya hakimiyyət orqanları ilə əməkdaşlıq edib-etməmək haqqında qərar vermək üçün, ehtimal olunan qurbanlara ən azı 30 günlük bərpa və düşünmə zamanı verilməlidir.

### YAŞAYIŞ İCAZƏSİ

Qurbanların şəxsi vəziyyətinin tələb etdiyi və ya istintaqda və ya cinayət işində əməkdaşlıq etmələri üçün tələb edildiyi halda, yenilənə bilən yaşayış yeri icazəsi hüququ.

### KOMPENSASİYA VƏ HÜQUQİ YARDIM

Məlumat, hüquqi yardım və pulsuz hüquqi yardım almaq, eləcə də dəymiş maddi və mənəvi ziyana görə kompensasiya almaq hüququ.

### REPATRİASİYA VƏ GERİ DÖNMƏ

Qurbanların öz ölkələrinə geri dönmələri onların hüquqları, təhlükəsizliyi və ləyaqətinə hörmət edilərək və müvafiq qanuni icraatın statusu nəzərə alınaraq baş verməlidir.

### CƏZAYA MƏRUZ QALMAMA

Dövlətlər, törədilməsinə məcbur edildikləri qanunsuz əməllərə görə insan alveri qurbanlarına münasibətdə cəza tətbiq etməmək imkanı təmin etməlidirlər.

### İSTİNTAQ VƏ MƏHKƏMƏ İCRAATI DÖVRÜNDƏ QORUMA

Qurbanlar və onların ailə üzvləri baş verə biləcək qisas və ya hədə-qorxudan qorunmalıdırlar.

### UŞAQLARIN HÜQUQLARI

Bütün insan alveri qurbanlarına şamil edilən hüquqlardan əlavə, uşaqlar onların maraqlarını nəzərə alan xüsusi yardım və qoruma tədbirlərindən yararlanırlar.

# MONİTORİNQ MEXANİZMİ

Konvensiyanın əhəmiyyətli əlavə dəyəri onun icrasına nəzarət edən monitorinq mexanizminin olmasıdır. Bu mexanizm iki sütundan ibarətdir və Tərəf dövlətlərlə davam edən dialoqa əsaslanır.

## İNSAN ALVERİNƏ QARŞI FƏALİYYƏT ÜZRƏ EKSPERTLƏR QRUPU (GRETA)

15 müstəqil ekspert
Fərqli sahələr üzrə ekspertiza

GRETA hər bir Tərəf dövlətdə Konvensiyanın icra edilməsini vaxtaşırı qiymətləndirir. Buna hakimiyyət orqanlarına və vətəndaş cəmiyyətinə anketlərin göndərilməsi, ölkəyə səfər edilməsi, əldə olunan faktlar və gəlinən nəticələrlə bağlı hesabatın hazırlanması daxildir. GRETA həmçinin Konvensiyanın əhatə etdiyi mövzular və anlayışlar barədə təlimatlar hazırlayır.

## TƏRƏFLƏR KOMİTƏSİ

Konvensiyanın iştirakçısı olan dövlətlərin nümayəndələrindən ibarət siyasi orqan

GRETA-nın hesabatları və gəldiyi nəticələr əsasında, Tərəflər Komitəsi GRETA-nın hesabatlarını icra etmək üçün görülməli olan tədbirlərlə bağlı Tərəf dövlətlərə tövsiyələr verir.

## HƏR BİR TƏRƏF DÖVLƏT 4-5 İLDƏN BİR QİYMƏTLƏNDİRİLİR

### 1-Cİ MƏRHƏLƏ
2010

Qiymətləndirmə mövzusu: Konvensiyanın icrasına ümumi baxış

### 2-Cİ MƏRHƏLƏ
2014

Qiymətləndirmə mövzusu: Görülən tədbirlərin təsiri, uşaq alveri və yeni tendensiyalar

### 3-CÜ MƏRHƏLƏ
2018

Qiymətləndirmə mövzusu: Ədalət mühakiməsinə çıxış və səmərəli vasitələr

### 4-CÜ MƏRHƏLƏ
2023

Qiymətləndirmə mövzusu: İnsan alverinə həssas qruplar və informasiya və kommunikasiya texnologiyasından istifadə

## MONİTORİNQ NECƏ KEÇİRİLİR?

1. Hər mərhələ üçün GRETA **anket** qəbul edir və bu sənəd hakimiyyət orqanlarına və vətəndaş cəmiyyətinə göndərilir.
2. Əlavə məlumat toplamaq üçün GRETA **ölkəyə səfər** təşkil edir. GRETA hesabat layihəsi qəbul edir və bu sənəd şərhlər üçün hakimiyyət orqanlarına göndərilir.
3. Hakimiyyət orqanlarından şərhlər alındıqdan sonra GRETA son **hesabatı** qəbul edir və bu sənəd nəşr edilir.
4. Tərəflər Komitəsi GRETA-nın gəldiyi nəticələrə əsasən **tövsiyələr** qəbul edir. Hökumətlər Tərəflər Komitəsinə bu tövsiyələri icra etmək üçün görülmüş tədbirlər haqqında hesabat verir.
5. GRETA **əlavə suallar** verməklə və/ və ya ölkədə **dəyirmi masa** təşkil etməklə monitorinqə davam edir.

## GRETA TƏRƏFİNDƏN GÖRÜLƏN TEMATİK İŞ

GRETA aşağıdakı mövzular üzrə tematik hesabatlar və təlimatlar hazırlayıb:

- Əmək istismarı məqsədilə insan alveri
- Uşaq alveri
- Qurbanlara yardım
- İnsan alveri qurbanlarının beynəlxalq qorumaya çıxışı
- Onlayn və texnologiyalardan istifadə ilə insan alveri
- Miqrasiya kontekstində insan alveri
- Bərpa və düşünmə müddəti

## MONİTORİNQİN TƏSİRİ

- Qanunvericiliyə dəyişikliklər
- İnsan alveri üzrə milli məruzəçilərin təyin edilməsi
- İnsan alverinə qarşı strategiyaların və fəaliyyət planlarının qəbul edilməsi
- İnsan alveri qurbanlarının müəyyən edilməsi üçün təkmilləşdirilmiş prosedurlar
- İxtisaslaşmış sığınacaqların qurulması
- Qurbanlara yardım üçün artırılmış büdcə vəsaitləri
- Təlim və əməkdaşların ixtisaslaşması

**DAHA ƏTRAFLI MƏLUMAT ÜÇÜN**

Bütün ölkə hesabatları, təlimatlar və nəşrlər onlayn mövcuddur.

www.coe.int/trafficking
trafficking@coe.int

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE